Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli 13-04/S nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi haqqında**

# Ə S A S N A M Ə

## I. ÜMUMİ MÜDDƏALAR

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi (bundan sonra - Mərkəz) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli 13-04/S nömrəli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin kitabxasının və Naxçıvan Muxtar Respublika Kitabxanası "Naxçıvanşünaslıq" bölməsinin bazasında yaradılır.

Mərkəz Azərbaycanşünaslığın üzvi tərkib hissəsi olan Naxçıvanşünaslığa dair irsin, xüsusilə Naxçıvan Muxtar Respublikasının tarixi, elmi, ədəbi mühiti, incəsənəti, təbii sərvətləri və mədəniyyətini, habelə Naxçıvanın görkəmli şəxslərinin həyatı və fəaliyyətini öyrənən və təbliğ edən dövlət mədəniyyət müəssisəsidir.

2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, digər normativ aktları və bu Əsasnaməni rəhbər tutur.

3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının elmi-mədəni mərkəzləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Mərkəz hüquqi şəxsdir, müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

5. Mərkəzin fəaliyyətinin maliyyələşdirilməsi dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına həyata keçirilir.

6. Mərkəzin arxivi və fondu ümumi istifadə üçündür. Arxivdən və fonddan onun daxili qaydalarından düzgün istifadə etmək şərti ilə həm Azərbaycan, həm də xarici ölkə vətəndaşları, habelə idarə, müəssisə və təşkilatlar istifadə edə bilər.

7. Mərkəzin arxivindən və fondundan istifadə pulsuzdur. Pullu xidmət ayrı-ayrı (sürətçıxarma, bərpaetmə və sair) xidmət növlərinə tətbiq oluna bilər.

8. Mərkəz Naxçıvan şəhərində yerləşir.

9. Mərkəzin yenidən təşkili və ləğv edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilir.

## II. MƏRKƏZİN ƏSAS VƏZİFƏLƏRİ VƏ FUNKSİYALARI

10. Mərkəz ona həvalə olunmuş əsas vəzifəsinə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

10.1. Azərbaycanşünaslığın üzvi tərkib hissəsi olan Naxçıvanşünaslığı tədqiq və təbliğ etmək məqsədilə bu işlə məşğul ola bilən elm və mədəniyyət xadimlərini müvafiq mövzuların işlənilməsinə cəlb etmək və onların elmi fəaliyyətlərinə lazımi şərait yaratmaq;

10.2. Naxçıvanşünaslıq irsinin elm, təhsil, mədəniyyət və sair sahələrdə qorunması və inkişaf etdirilməsini təmin etmək;

10.3. aparılan tədqiqatların nəticələrini yaymaq və təbliğ etmək məqsədilə tədbirlər həyata keçirmək;

10.4. Naxçıvanşünaslıq irsinin tədqiqinə həsr olunmuş görkəmli əsərlərə görə mükafatlandırılması üçün təkliflər vermək;

10.5. Naxçıvana həsr olunmuş çoxsaylı kitab, albom, elmi-kütləvi qəzet və jurnal materiallarının, sənədli filmlərin və elektron daşıyıcılarının arxivini və fondunu yaratmaq, həmin arxivi və fondu əhəmiyyətli nəşrlərlə və digər məlumat daşıyıcıları ilə komplektləşdirmək;

10.6. Mərkəzin fondunun elmi cəhətdən işlənməsini, kataloq və kartoteka sistemində əks olunmasını, avtomatlaşdırılmasını və müasir informasiya daşıyıcılarına köçürülməsini təmin etmək;

10.7. kitabxana fondunun tərkibinin təkmilləşdirilməsini təmin etmək, görkəmli elm xadimlərinin əsərlərinin əlyazmalarının, muxtar respublikaya aid nadir nəşr nümunələrinin xüsusi fondlarını yaratmaq;

10.8. muxtar respublika həyatının müxtəlif sahələrinə həsr edilmiş tədbirlər, kurs və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər təşkil etmək, konfranslar və digər mədəni-kütləvi tədbirlər həyata keçirmək;

10.9. müvafiq qurumlarla və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək;

10.10. müvafiq beynəlxalq tədbirlərdə müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasını təmsil etmək və belə tədbirlərin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə nail olmaq.

## III. MƏRKƏZİN HÜQUQLARI

11. Mərkəz öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

11.1. Naxçıvanşünaslıqla bağlı bütün sənədləri və mənbələri əldə etmək və toplamaq;

11.2. Naxçıvanın öyrənilməsinə dair prioritet sahələri və istiqamətləri müəyyən edib elmi ictimaiyyətə çatdırmaq;

11.3. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

11.4. təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatların aparılması barədə təkliflər vermək;

11.5. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

11.6. başqa təşkilatlarla, o cümlədən xarici ölkələrin təşkilatları, alim və mütəxəssisləri ilə informasiya mübadiləsi aparmaq;

11.7. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## IV. MƏRKƏZİN STRUKTURU VƏ İDARƏ EDİLMƏSİ

12. Mərkəzin fəaliyyətinə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

Mərkəzin direktoru Mərkəzin fəaliyyətinə görə ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

13. Mərkəzin direktoru:

13.1. Mərkəzin fəaliyyətini təşkil edir;

13.2. müəyyən edilmiş əmək haqqı fondu və işçilərin say həddi daxilində ştat cədvəlini, aparatın iş planını, habelə müvafiq dövr üçün ayrılan büdcə daxilində Mərkəzin saxlanılması xərclərinin smetasını təsdiq edir;

13.3. öz səlahiyyətləri daxilində əmr və göstərişlər verir;

13.4. Mərkəzi təmsil edir;

13.5. Mərkəzin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onları mükafatlandırır və onlar barəsində intizam tənbehi tətbiq edir;

13.6. Mərkəzin maliyyə vəsaitləri və əmlakı barəsində sərəncam verir;

13.7. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

14. Mərkəzdə Mərkəzin direktorunun rəhbərliyi ilə tanınmış alimlərdən, mədəniyyət xadimlərindən ibarət ictimai əsaslarla fəaliyyət göstərən Elmi Şura yaradıla bilər.

15. Elmi Şura Mərkəzin müvafiq təşkilatlarla işinin əlaqələndirilməsi, tədqiqat işlərinin müzakirəsi və çapa təqdim edilməsi ilə məşğul olur. Şuranın iclasları vaxtaşırı keçirilir və Mərkəzin direktoru tərəfindən çağırılır.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ